# “Qardaşlıq güclənəcək”

*Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri Türkiyə mediasının əsas gündəm mövzusu oldu*

**Türkiyə-Azərbaycan əlaqələrinin mövcud səviyyəsi qardaşlığın, dostluğun rəmzi olaraq iki dövlətin həmrəyliyi və birliyinin yüksək təzahürü sayılır. Strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərin qorunması və inkişafı xalqlarımızın mənəvi sifarişidir. Azərbaycan-Türkiyə əlaqələrinin siyasi, iqtisadi və digər bütün sahələr üzrə dinamik artımda davam etməsi böyük bir coğrafi məkanda proseslərin gedişinə təsir göstərir. Təbii ki, münasibətlərin bu qaydada formalaşmasında liderlərin də xüsusi rolu var.**

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycanla Türkiyə arasındakı münasibətlərə töhfə verən mühüm məqamlardan biri də prezident seçkilərindən sonra dövlət başçılarının etdikləri səfərlərdir. Yenidən Türkiyə Prezidenti seçilmiş Rəcəb Tayyib Ərdoğanın andiçmə mərasimindən sonra ilk rəsmi səfərini Azərbaycana etməsi ölkələrimiz arasında strateji əməkdaşlığa və müttəfiqliyə göstərilən yüksək diqqətin real təsdiqidir.

Səfər qardaş ölkənin bir neçə yüz minlik tirajlı qəzetlərinin əsas manşet mövzusuna çevrilib. Teleşirkətlər isə həmin hadisəni canlı yayımlar vasitəsilə izləyicilərə təqdim ediblər. Onlardan bəzilərini oxucuların diqqətinə çatdırırıq:

“Hürriyet” qəzeti “Dünyaya Şuşa mesajı” adlı xəbəri manşetdən verib. Məqalədə bildirilir ki, Rəcəb Tayyib Ərdoğan Prezident seçildikdən sonra ilk səfərini Azərbaycana edib. Siyasi, iqtisadi, ticarət, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə ikitərəfli əməkdaşlığın bundan sonra da çevik inkişafı Azərbaycan və Türkiyəyə yeni-yeni uğurlar vəd edir.

Hər iki dövlət başçısının açıqlamalarını diqqətə çatdıran qəzet R.Ərdoğanın “Şuşadakı baş konsulluğumuzu istədiyiniz vaxt açmağa hazırıq. İnşallah, Şuşadakı baş konsulluğumuz açılsa, bu, təbii ki, başda Ermənistan olmaqla bütün dünyaya ayrı bir mesaj olacaq” fikirlərinə geniş yer ayırıb. Prezident İlham Əliyevin “Seçkilərdə Sizin qələbəniz 20 ildən çox müddət ərzində apardığınız siyasətin Türkiyə xalqı tərəfindən yüksək qiymətləndirilməsinin təzahürüdür” fikrini oxuculara çatdıran qəzet qeyd edib ki, Azərbaycanda Türkiyəni sevən insanlar qardaş ölkədə inkişaf proseslərini çox böyük sevinclə qarşılayırlar. Biz dostuq, qardaşıq. Türkiyə Prezidentinin seçkilərdən sonra birinci səfərini Azərbaycana etməsi bunu bir daha göstərir.

“Türkiye” qəzetinin “Zəngəzur sürətlə başa çatacaq” xəbərində qeyd edilir ki, istər avtomobil yolu, istərsə də dəmir yolu ilə bağlı atılacaq addımlar sayəsində buradan İğdıra, Naxçıvana yolun açılması ilə Türkiyənin Naxçıvanla əlaqəsi daha güclü olacaq. Bu əlaqələrin yaradılması Türkiyə ilə Azərbaycan arasındakı münasibətlərin daha da güclənməsinə imkan verəcək.

Nəşr həmçinin Prezident İlham Əliyevin “Zəngəzur dəhlizinin açılması qaçılmazdır, nə qədər tez olsa, o qədər yaxşıdır. Hər halda biz bu istiqamətdə səylərimizi artıracağıq” fikirlərinə yer ayırıb.

“Akşam” qəzeti isə “Xarici siyasətdə ortaq fikir qərarı” başlıqlı xəbərində qeyd edir ki, R.Ərdoğan ilk rəsmi səfərini Azərbaycana etdi. Türkiyə prezidentinin səfəri zamanı aparılan danışıqlar iki ölkə arasındakı qardaşlıq əlaqələrini, birliyi və strateji tərəfdaşlığı bir daha nümayiş etdirdi. Diqqətə çatdırılır ki, əməkdaşlığımızdakı nailiyyətlərin əsasında Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dostluq və qardaşlıq münasibətləri dayanır.

Türkiyənin ən çox oxunan qəzetlərindən “Milliyet” də “Dünyaya Şuşa mesajı” başlıqlı xəbər paylaşıb. Bildirilir ki, qardaş ölkənin Prezidenti ilk rəsmi səfərini Azərbaycana etdi. Hər iki dövlət başçısı Şuşa ilə bağlı səsləndirdikləri fikirlərlə dünyaya mesaj verib ki, Azərbaycan Türkiyə ilə qardaş ölkədir və bu qardaşlığı heç kim sarsıda bilməz. Bölgədə ən pozitiv, hamının marağına uyğun olan iqtisadi, siyasi, nəqliyyatla bağlı bütün layihələr Azərbaycan və Türkiyə ilə bağlıdır.

“Sabah” qəzeti “Şuşadakı konsulluq dünyaya mesaj olacaq” başlıqlı xəbərində İlham Əliyevin fikirlərinə geniş yer verərək vurğulayır ki, Türkiyə-Azərbaycan qardaşlığı səmimi əməkdaşlığa söykənir. Bildirilib ki, rəsmi qarşılanma mərasimindən sonra hər iki liderin təkbətək görüşü olub. İlham Əliyevin “Azərbaycan xalqı adından Sizə və qardaş Türkiyəyə İkinci Qarabağ savaşı dönəmində bizə göstərdiyiniz qardaşlıq dəstəyinə, mənəvi və siyasi dəstəyə görə bir daha təşəkkürümü bildirmək istəyirəm” fikirlərinə geniş yer ayıran məqalədə iki ölkə arasında güclü bağların olduğu diqqətə çatdırılıb.

Televiziya kanallarından “CNN Türk” “Əliyevlə Ərdoğandan mühüm mesajlar” başlıqlı xəbər yayımlayıb. Bildirilib ki, Türkiyə dövlət başçısının bir günlük səfəri çərçivəsində İlham Əliyev ilə istər təkbətək, istərsə də geniş tərkibdə görüşlərdə iqtisadi, ticari, mədəniyyət, təhsil və xarici siyasətlə əlaqədar məsələlər geniş şəkildə dəyərləndirildi.

“AHaber” kanalının “Dünyaya Zəngəzur mesajı” başlıqlı xəbərində bildirilib ki, R.Ərdoğan seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana etdi. Türkiyə prezidentinin “Üzərində ən çox çalışdığımız və həssaslıq göstərdiyimiz Zəngəzur dəhlizi məsələsini, inşallah, sürətlə həll etməyimiz bizə iki mühüm imkanı qazandıracaq” fikirlərinə geniş yer ayıran sujetdə vurğulanır ki, Can Azərbaycanla əlaqələr ən yüksək zirvədədir. Xüsusilə iqtisadi sahədə əməkdaşlıq bölgə üçün də çox böyük rol oynayır. Türkiyə-Azərbaycan birliyi bölgədə sabitlik yaradan bir amildir.

Qəzetlərdən “Yeniş Şafak”ın “Zəngəzur güc qatacaq”, “Yeni akit”in “Zəngəzur dəhlizi ilə əlaqələr daha da güclənəcək”, “Türkgün”ün “Dünyaya önəmli mesaj”, “Posta”nın “Şuşada konsulluğun açılmasına qərar verildi”, “Aydınlığ”ın “Zəngəzur dəhlizi qazandıracaq”, “Yeni Birliy”in “Dünyaya Zəngəzur mesajı”, “Milat”ın “Qardaşlıq güclənəcək”, “Takvim”in “Erdoğan formatı”, “Diriliş postası”nın “Şuşa əmri”, “Yeni mesaj”ın “İki liderdən Zəngəzur mesajı”, “Yeni söz”ün “Bakıda dünyaya önəmli mesajlar verildi”, “Daily Sabah”ın “Azərbaycan-Türkiyə münasibətləri çox güclüdür”, “Analiz”in “Türkiyə və Azərbaycan arasında təhsil körpüsü”, “Daily News”un “Türkiyə-Azərbaycan münasibətləri daha da güclənir”, “Yaşam qəzeti”nin “Şuşa və Zəngəzur müjdəsi”, xəbər agentliklərindən “Anadolu”nun “İlham Əliyev və Ərdoğan mətbuata birgə bəyanatlarla çıxış etdilər”, “İhlas”ın “Ərdoğan Bakıda möhtəşəm qarşılandı”, “TRHaber”in “İki ölkə arasında yeni addımlar atılacaq”, “Lider Bursa”nın “Qardaşla havalı açılış”, “Haber 7”nin “Ərdoğandan Şuşa əmri”, “Haberet.com”un “Türkiyə Şuşada konsulluq açır”, “Beyaz qəzeti”nin “Dünyaya mesaj olacaq”, televiziya kanallarından “TRTHaber”in “Ərdoğan Bakıda”, “Haber Global”ın “İlham Əliyevdən önəmli açıqlamalar” və “Şou TV”nin “Əliyevlə Ərdoğan önəmli mesajlar verdilər” xəbərlərində də R.Ərdoğanın Azərbaycan səfəri xüsusi olaraq qeyd edilib. Bildirilib ki, Azərbaycan-Türkiyə qardaşlığı, dostluğu və strateji müttəfiqliyi sarsılmaz və əbədidir. Azərbaycan Prezidenti isə Türkiyənin ən yaxın və səmimi dostudur.

Göründüyü kimi, deyilən fikirlər də bir daha təsdiq edir ki, hər iki liderin qarşılıqlı səfərləri ölkələr arasında əlaqələri qardaşlığın və qarşılıqlı dəstəyin daha yüksək səviyyəsinə çıxardır. Başqa sözlə, Azərbaycan-Türkiyə dostluğu, strateji tərəfdaşlıq münasibətləri dünya ölkələrinə model, örnək ola bilər.




*Elçin CƏFƏROV,*
*“Azərbaycan”*